***UOT-811.512.162***
***Səhifə:126-130***
*https://doi.org/10.59849/2663-8967.2023.2.126*

***Aynur Mirzəyeva***
***Azərbaycan İqtisad Universiteti***
***Azeri -0704@yahoo/com***

# QARABAĞIN ETNOTOPONİMLƏRİ AZƏRBAYCAN VƏ ERMƏNİ MƏNBƏLƏRİNDƏ

## XÜLASƏ

Toponimlər cəmiyyətin həyatında xüsusi əhəmiyyət kəsb edir . Toponimsiz inkişaf etmiş xalq, millət təsəvvür etmək mümkün deyildir. Qarabağın etnotoponimlərinin öyrənilməsi Azərbaycan dilçilərinin qarşısında duran əsas məsələlərdən biridir. Tarix göstərdi ki, iki əsrdən çox, ermənilərin gözü olduğu torpaqlarımızın zaman-zaman ələ keçirilməsi uğrunda mübarizə aparmalarını, toponimlərimizi özəlləşdirmək cəhdlərini, alimlərimiz öz əsərlərində ləyaqətlə göstərmişdilər. Etnonimlər xalqın kimliyini sübuta yetirmək üçün əsas aparıcı, mühüm, istiqamət verən mənbədir. Məqalədə "Qarabağın etnotoponimləri mənbələrdə" adlı məqaləsində Qarabağın etnotoponimlərini qədim mənbələrdən bu günə kimi göstərilmiş, tədqiq edilmiş əsərlərə nəzər salmaq, onlarda olan reallıqları göstərməkdir.

**Açar sözlər:** *Azərbaycan, Qarabağ, etnotoponimlər, Azərbaycan və erməni mənbələri*

**Giriş.** Qarabağın etnotoponimlərini araşdırarkən, Azərbaycanın ayrılmaz hissəsi olan doğma Qarabağın dağlıq və aran hissələrini, yəni bütöv Qarabağın etnotoponimlərini tədqiq edərək, Qarabağın keçmişi, bugünü haqqında, qədim mənbələrlə bərabər əsrin birinci, ikinci rübündə, 32 illik mühasirə şəraitində olarkən yazılmış əsərlərlə bərabər, azad və qalib ərazi kimi doğma Qarabağla bağlı mənbələrə müraciət edilmiş, dəqiq, dürüst məlumatlar mənbələr bölümündə öz əksini tapmışdır. Qarabağın etnotoponimlərinə müraciət etmək, onun etnotoponimlərini nəzərdən keçirmək, real təhlilini vermək, alimlərin qarşısında duran əsas məsələlərdən biridir. Azərbaycan və erməni mənbələrindən müqayisəli surətdə istifadə ediləcək coğrafi adların hərtərəfli və sistemli şəkildə öyrənilməsinin çox böyük siyasi, təcrübi və xüsusilə elmi əhəmiyyəti vardır. Belə ki, xalqımızın qədim salnaməsinin səhifələri olan bu adların müasir elmi səviyyədə araşdırılmasının ən başlıca əhəmiyyəti ondan ibarətdir ki, onlarda təşəkkültapma tariximiz, dilimizin formalaşmasında və inkişafında iştirak etmiş komponentlər, ulu babalarımızın keçdiyi yol, eləcə də bu ərazidə məskunlaşmış bir sıra başqa tayfa və etnik qruplar, onların müxtəlif dil qruplarına mənsub qəbilə, tayfa və xalqlarla tarixi əlaqələri və s. öz əksini tapmışdır [1, s.237]. Y.Yusifov yazırdı ki, e.ə III-I minilliklərə aid mixi, yaxud mismari yazılarda türk mənşəli sözlər, şəxs və yer adlarının müəyyənləşdirilməsi sahəsində ilk elmi addımlar atılmağa başlandı. Məlum oldu ki, türk etnosları ta qədim dövrlərdən bu ərazinin sakinləri idilər və hələ ən qədim dövrlərdən geniş bir ərazidə türk etnoslarının yerdəyişmələri baş verirdi. Deməli, türk etnosları Azərbaycana gəlmə deyil, onun ən qədim sakinləri olmuşlar. Dilçi və tarixçi alimlərimiz bu sahədə böyük nailiyyətlər əldə etmişdilər [2, s. 4]. Görkəmli alimləriniz T. Əhmədovun, Y. Yusifovun fikirlərində toponimlərin, onun əsas bölmələrindən olan etnonimlərin öyrənilməsi sayəsində, türk etnoslarının Qarabağın ilk sakinləri olması sübuta yetirilir. Qarabağın toponim və etnotoponimlərinin adlarına bizim eradan əvvəl VI – V əsrlərdə Hekatey Miletskinin "Zemloopisanie" əsərində miki və dondar etnonimlərinin adlarında rast gəlinir [3, s,13]. V əsrdə yaşamış Heredot "Tarix" əsərində sak, kaspi tayfalarının adlarını qeyd etmişdir [4, s.51]. Strabon "Coğrafiya" əsərində Qafqaz Albaniyası əhalisinin müxtəlifdilli olmasını, onların 26 dildə danışdığını göstərmiş, alban, kaspi, gel, lek, qarqar, surak, mard, sak və s. etnosların adlarını göstərmişdir

[ 5]. Erməni tarixçilərinin əsərlərində, hələ V əsrdən, Qarabağın toponimləri və etnonimləri haqqında yazılanlara rast gəlinir. Həmin əsrdə yaşamış erməni tarixçisi Favst Buzənd Albaniyadan danışarkən quqar, alban, maskut, xeçmatak, ijemax, hun və başqa tayfaların yaşadığını göstərmişdir [6, s.270]. Eqişe və Moisey Xorenski Alban toponimlərindən Bərdə, Qarqar və b. qeyd etmişlər [7]. Erməni müəlliflərindən ilk dəfə Moisey Xorenski türkdilli xalqların bulqarların, hunların, xəzərlərin adlarını qeyd etmiş, Lazar Parabski isə Albaniyada yaşamış kəngərlərdən, Kəngərlər ölkəsindən danışmışdır [8, s,175]. VII əsr "Erməni coğrafiyası" əsərində Albaniya əyalətləri, bakan, kaspi, şarvan, maskut, max, ijemax və s. tayfalar haqqında məlumatlar vermişdir [9, s.43]. Moisey Kalankatvatsi "Alban tarixi" əsərində Qandzak, Şamkor, Xaçenk, Aqbid, Qis, Dastakert, Daraqoç, Daranaq, Muxravan, Şaqat, Şaqen, Tavus və s. adlar haqqında məlumat vermişdi [10, s,268].

Məhəmməd Həsən Vəliyev (Baharlı) "Azərbaycan" adlı əsərində Xəzərlər, Baharlı, Bayat, Qaradağlı, Qaramanlı, Qubadlı, Kəngərli, Kəngərli – Şirxan, Qızıllı Kəngərli, Salahlı - Kəngərli, Cəyirli, Cavanşirli, Xalac, Kalac, Əhmədli, Aydınlı, Təklə, İmirli, Düxər, Saatlı, Qədirli, İlxıçı, Şatırlı, Qaradağlı, Qaradağlılar, Muradlı, Qoç-Əhmədli, Zərgər, Yal-Pirəhmədli, Əhmədağalı, Yarəhmədli, Şahsevən, Çaxırlı, Eyvatlı, Poladlı, Qara Dəmirçi – Həsirçi, Qara Dəmirçi, Milli, İlxıçılar, İlxıçılarxana, Kərimağa, Gövhərağa, Boyəhmədli, Kobarta – Boyəhmədli, Cilovdarlı, Təklə, Poladlı, Polad Mahmudlu, Dəmirçilər, Xəlfəli, Qaradağlı- Bərəndəli, Ağdam- Qaradağlı, Qaradağlı Uğurlubəy, Qaradağlı Kərimağa, Molla Əhmədli, Kobatlı, Əmirvarlar, İmirlixana, Əmirvarlar, Qacar, Otuz iki, Padar, Xəlilli Qasımbəy, Sur, Əfşar, Əhmədli, Otuziki, Xalac, Xocalı, Şahsevən , Qazaxlar, Qazax Rəhimlər, Şıxlı, Quşlar, Qarapapaqlılar, Qarabörklər, Seyidlər, Seyid Sadıq, Seyidli, Seyidbəyli, Ərəb, Bəbirxanlı, Ərəbqardaşbəyli, Bozlu, Ağcakəndli, Əliyanlı, Bozlu, Kürd Mahrızlı, Qazıkürdlü, Qaralar, Qaracallı və s toponim və etnonimlərini göstərməklə yanaşı, Qarabağda yaşayan tayfalar haqqında geniş məlumat vermişdir [11, 35, 38, 39, 40, 41, 42, 43, 44, 45, 46, 47, 48, 49, 51, 52, 54, 59]. Qarabağın etnotoponimlərini araşdırarkən, doğma Qarabağımızda etnonimlərin türk mənşəli olduğunu müəyyən etdik. Yad dil toponimlərinə rast gəlmədik.

Qarabağ həqiqətlərini daha çox təbliğ edən tarixçi alim Qiyasəddin Qeybullayevin xidmətləri əvəzsizdir. Müəllif "Azərbaycan türklərinin təşəkkülü tarixindən" adlı əsərində azərbaycanlıların mənşəyi haqqında, mannalar, madaylar, kimmerlər, skiflər, saklar, albanlar və atropatenlər haqqında məlumat vermiş, onların etimologiyasını göstərməklə bərabər, həmin tayfaların Qarabağın ən qədim sakinləri olduğunu göstərmişdir [2].

Q.Qeybullayevin "Qədim türklər və Ermənistan" [12 ] kitabında qədim ata-baba ocaqlarından didərgin düşmüş azərbaycanlıların soykökü və təşəkkülü haqqında məlumat verilmişdir. Erməni araşdırıcıları tarixi Azərbaycan torpaqları olan Göyçə, Dərələyəz, Zəngəzur, Zəngibasar, Qəmərli, İrəvan, qədim Ağbaba ellərində yaşayan azərbaycanlıların orta əsrlərdə gəlmiş köçəri tayfaların sonrakı nəsilləri olduğunu söyləyirdilər. Müəllif tarixi faktlar əsasında sübut edir ki, hələ eradan əvvəl VIII-VII yüzilliklərdə bu ərazilərin hamısı qədim türklərin məskəni olmuşdur. Ermənistan ərazisində saysız-hesabsız türk mənşəli toponimlər də sübut edir ki, bu torpaqda qədim türklər yaşamışlar. Bu kitab Ermənistan azərbaycanlılarının mənşəyi haqqında ilk təşəbbüsdür. Müəllif Ermənistan azərbaycanlılarını Azərbaycan xalqının tərkib hissəsi kimi götürmüş və onların bütünlükdə azərbaycanlıların mənşəyi ilə bir vəhdətdə araşdırmışdır. Qeyd etmək lazımdır ki, Q.Ə.Qeybullayevin Azərbaycan xalqının mənşəyi haqqında öz konsepsiyası vardır. Qabaqkı əsərlərində, xüsusilə 1991-ci ildə çap etdirdiyi "Azərbaycanlıların etnogenizinə dair. I cild. Bakı, 1991" (rusca) kitabında öz izahını tapmış bu konsepsiya azərbaycanlıların etnogenezinə dair mövcud konsepsiyadan köklü sürətdə fərqlənir. Müəllif göstərir ki, ermənilər planlı surətdə, aramla xalqımıza qarşı məkrli ideyaların həyata keçiriblər. Hələ 30-cu illərin ortalarından başlayaraq Ermənistanda Azərbaycan kəndlərinin adları dəyişdirilir, 40-cı illərin sonlarında azərbaycanlıların bir hissəsi tarixi torpaqlarından qovulur. Ermənistanda 50-ci illərin əvvəllərindən başlayaraq, Azərbaycan ərazisi hesabına böyük Ermənistanı yaratmaq ideyası ilə cild-cild kitablar yazılır, xəritələr çəkilir (bu yaxınlarda Fransada fransız dilində çap olunmuş bir kitabda verilmiş xəritədə Kürlə-Arazın qovuşmasınadək olan bütün Kür-Araz ovalığı Ermənistan ərazisi kimi göstərilmişdir. Bununla da Dağlıq Qarabağın kimə məxsus olması kimi qondarma məsələnin müzakirə predmetinə çevrildi. Erməni tarixçiləri öz əsərlərin-

də azərbaycanlıları orta əsrlərdən gəlmə köçəri adlandırdıqları, Kürdən cənubdakı torpağımızın o cümlədən Qarabağın tarixən erməni ərazisi olduğunu tarixi mənbələrdə "əsaslandırdıqları" və beləliklə Azərbaycana qarşı indiki torpaq iddiasının nəzəri əsaslarını hazırladılar. Min ilə qədər dövlət qurumu, paytaxtı, V əsrdən yazısı olmuş, əsrlər boyu müxtəlif işğalçılara qarşı döyüş meydanlarında vuruşmuş alban xalqı VII əsrdən sonra bir etnos kimi tarix səhnəsindən çəkildi. Bunun səbəbi ərəb işağlı oldu. Belə ki, IV əsrdən xristian dinini qəbul etmiş albanların əksəriyyəti islam dininə keçdi və sonra Azərbaycan xalqının təşəkkülü prosesində iştirak etdi. Albanların Dağlıq Qarabağda yaşayan böyük bir hissəsi dinindən dönmədi, lakin VII əsrin əvvəllərindən erməni kilsəsinin fitvasına uyan ərəb xilafətinin köməyi ilə erməni kilsəninin təsiri altına düşdü və müxtəlif yerlərdən köçüb gələn ermənilərlə qaynayıb-qarışaraq tədricən erməniləşdi. Amma etnik mənsubiyyətcə eyni xalqa aid olduqlarına, yəni mənşəcə türk olduqlarına görə müsəlman albanlar xristian albanları "din ayrı qardaş" adlandırırdılar. Əslində, özünün ilk vaxtlarında müsəlman azərbaycanlı yalnız köklü Qarabağlıya-yəni xristian albana "din ayrı qardaş" deyə bilərdi, lakin sonralar bu ifadə Qarabağ ermənilərinə də şamil edilmişdir [12]. B.Ə. Budaqov və Q.Ə.Qeybullayevin birlikdə yazdıqları "Qarabağın etnik məskunlaşma tarixi və toponimləri" adlı əsərində, Azərbaycanın tarixi – coğrafi cəhətdən ayrılmaz tərkib hissəsi olan Qarabağın tarixi- etnik məskunlaşması və toponimikası məsələləri tədqiq edilir.Kitabda uzun tarixi dövrlərdə Qarabağda baş verən etnik proseslər, məskunlaşma və miqrasiya məsələləri işıqlandırılır. Əsər giriş, 7 fəsil Qarabağın izahlı toponimiya lüğətindən ibarətdir.Əsərdə Albanlar, Saklar, Basianlar (Basinlər), Utilər, Qarqarlar, Dondarlar, Peçeneqlər, Qıpbaqlar, Aranlar, Kataklar, Xoroslar, (Goruslar), Hind-Avropa dil ailəsinə aid xalqlar, İran dilli tayfalar, Parslar, Yunanlar, Xəzərlər, oğuzlar, Qacarlar, Monqollqr, Başqa tayfalar, Abdallar, Quşçular, Hunlar, Muğanlılar, Uzlar, Kataklar, Qaramanlılar, Çinli tayfası, Qarabağ elləri,Yuxarı – Qarabağın nahiyələri, Vənənd nahiyəsi, Zarıs nahiyəsi, Keştas nahiyəsi, Dizak nahiyəsi, Talış nahiyəsi, Gülüstan nahiyyəsi, Xaçın nahiyyəsi, Celaberd nahiyyəsi haqqında tarixi və müasir mənbələr əsasında təhlil edilməklə, erməni alimlərinə tutarlı cavablar verilir.[13]. İlhami Cəfərsoy "Türk dillərində teonim və etnonimlər","Türk, Urartu, Alban etnolinqvistik uyğunluqları" monoqrqfiyasında, "İber və Hay folklorunda türk mifik təfəkkürünün izləri" monoqrafiyasında, "Sinay dağında Alban yazısı" (məqalə), "Aran eposları gürcu dilində" və başqa əsərlərində Qarabağın türk tayfaları, onun dili, mədəniyyəti geniş surətdə tədqiqata cəlb edilmiş , dəyərli nəticələr əldə edilmişdir. Müəllif " İber və Hay folklorunda türk mifik təfəkkürünün izləri" adlı əsəri İber və Hay adı altında gizlədilən türk etnoslarının folkloruna, dilinə və etnik tarixinə həsr olunmuşdur. Sonda müəllif bu nəticəyə gəlir ki, türklər qədim Ön Asiyanın- Troyanın, Şumer, Elam, Misir mədəniyyətinin yaradıcılarından biri olmuşdur. İ. Cəfərsoy "Hayların və Armenlərin mənşəyi "adlı əsərində yazır ki, dünyada çox az millət tapmaq olar ki, ermənilər kimi cürbəcür etnosların qatışığından yaransın. Dillər arasında elə bir dil tapmaq çətindir ki, ermənilərin dili qədər hibrid olsun. Dünyanın çoxlu ölkələrinə dağılmış ermənilər eyni dildə və eyni ləhcədə danışmırlar. Bunu erməni alimləri özləri də etiraf edirlər. Akademik Manuk Xaçaturoviç Abeğyan yazır ki, "Erməni milləti çoxlu xırda etnosların assimilyasiya nəticəsində yaranmışdır. Ermənilərin özləri kimi dilləri də hibriddir" [14, s.3]. Aydın Qarabağlının "Qarabağ, onun qədim tayfaları və toponimləri" əsərində Qarabağın keçmişi, onun toponimləri, qədim türk mənşəli tayfaları tədqiqata cəlb olunmuşdur [15]. Ermənilərin Qərbi Azərbaycanda və Qarabağın dağlıq hissəsində zorla etnik təmizləmə siyasəti həyata keçirərək Azərbaycanın 20% ərazisini işğal etməsi tarixi faktlar əsasında açıqlanır. Əsərdə istifadə edilmiş faktlar xəritələr, şəkillər, "Azərbaycan tarixi", Qarabağ toplusundan, Q. Kazımovun "Azərbaycan dilinin tarixi kitablarından istifadə edilmişdir. Kitabda Qarabağda olan tayfaların adları- Albanlar, Utilər, Dondarlar, Muğanlılar, Qacarlar və s. tayfalar haqqında məlumatlar verilir və bu tayfaların Qarabağın yerli sakinləri olduğunu təsdiq edir [8]. B.Məhişoğlunun "Doğma adım- Qarabağım" [16] kitabı Dağlıq Qarabağın yer adlarından, onların tarixindən xəbər verən bir tədqiqat əsəridir. Əsərin etnotoponimlərdən bəhs edən bölümündə Yuxarı Qarabağda türkdilli tayfaların necə yerləşməsi, tarixi toponimlərimizi saxtalaşdıran ermənilərin çirkin əməlləri ifşa edilir. Müəllif göstərir ki, erməni dilçi və tarixçi alimləri- B. Ulubabyan, M. Barxudaryan, Q.Kapantsyan və b alimlər bütün fəaliyyətləri ərzində Yuxarı Qarabağ toponimlərinin mənşəyini, yaranma mənbələrini saxtalaşdırmışdır. Qarabağın lap qədimlərdən Azər-

baycan torpağı olmasını özündə əks etdirən toponimlər müxtəlif zamanlarda dəyişdirilmis, hər cəhdlə torpaqların erməni torpaqları olmasını sübut etmək üçün tarixi gerçəkliyi unutdurmağa çalışmışlar. Müəllif bu əsərdə etnonimlər əsasında yaranmış toponimləri toplamış, onların türk mənşəli olduğunu faktlarla sübuta yetirmişdir. Tədqiqatda Ağvan, Aranzəmin, Alçalı, Azıx, Arpakədik, Ataqut, Akaku, Ağdərə, Ağburun, Ağoğlan, Arsak, Aterk, Badara, Ballıca,Balaqan, Bolutan, Çamırlı, Dəmirli, Dolanlar, Dovşanlı, Dükanlar, Dağdağan, Damğalı, Edilli, Əskəran, Əmirallar, Gəncəli, Günəşli, Göykəbir, Horov, herher, Harami, Xərxan, Xocalı, Xocavənd, Xəlfəli, İmirli qışlağı // eymurlu, etnonim, Kətik, Kosalar, Kərkicahan, Köçbək, Karan, Kolatağ, Köçərli, Qaybalı, Qarabağ, qaralar, Qazançı, Qılıcbağ, Qacar qayası, Qarqar, Qovusarallı, Qaradağlı, Qaçaqot, Qullar, Qiş, Qırmızıbazar, Quşçular, Qarakənd, Muğanlı, Laçınlar, Manikli, Malıbəyli, Şuşa, Şəhər, Tərtər, Zarıslı, Tuğ və b [16, s.136] nümunələr əsasında bu torpaqlarda türk xalqların yaşamasını əsaslandırmışdır.

Yunis Hüseynov "Qarabağ" adlı əsərində Qarabağın keçmişini, Şuşa şəhərinin tarixini erməni ünsürlərinin torpaqlarımıza gətirilməsinin səbəb və nəticələrini, erməni ünsürləri haqqında tarixi məlumatları, bu ünsürün saxtakarlıqlarını, dastanlarımız və bir çox tarixi hadisələr şərh olunur. Əsərdə Azərbaycan xalqına qarşı erməni ünsürləri tərəfindən törədilən soyqırımı haqqında da ətraflı məlumat verilir [17].

N. Babayevin " Şərqi Zəngəzur oykonimlərinin coğrafiya, tarix və dilçilik baxımdan tədqiqi" əsəri [18] beş fəsildən ibarətdir. Monoqrafiyada Şərqi Zəngəzurun tarixi ərazilərindəki yaşayış məntəqə adları araşdırılıb. Əsərin birinci fəslində Şərqi Zəngəzur oykonimlərinin öyrənilməsinin yaranma xüsusiyyətləri fundamental şəkildə şərh edilmiş, mənşəyi nəzəri-metodiki əsasları önə çəkilmişdir. İkinci və üçüncü fəsillərdə türk mənşəli terminlər vasitəsi ilə yaranmış oykonimlərin araşdırılmasına üstünlük verilmişdir. Dörd və beşinci fəsillərdə isə Şərqi Zəngəzur ərazisində xalqın daha qədim tarixi ilə bağlı olan etnotoponimlərin hərtərəfli öyrənilməsi sahəsində, xüsusilə oğuzların bu ərazilərin aborigen sakinləri olduğunu sübuta yetirən uğurlu tədqiqat işidir.

Müəllif göstərir ki, Şərqi Zəngəzur Azərbaycanın ən qədim diyarlarından biridir. Monoqrafiyada region oykonimlərinin etimoloji təhlili, onların dil mənsubiyyəti və mənşəyinin müəyyən edilməsi, xalqımızın etnogenezində iştirak edən türk mənşəli etnotoponimlərin tədqiqi, region oykonimlərinin Azərbaycan toponimiyasındakı rolu, müstəqilliyimizin bərpası ilə əlaqədar tarixi yer adlarının aşkar edilməsi elmi əhəmiyyəti ilə yanaşı, milli-mənəvi dəyərlərimizin qorunması baxımından əvəzolunmazdır.

**Nəticə.** Mənbələrin əhəmiyyətli cəhəti ondan ibarətdir ki, onlar min illərlə adlarımızı uzaq keçmişlərdən indiyə qədər qoruyub saxlamış və bizə gətirib çatdırmışdır. Yalnız bunların köməyi ilə biz coğrafi adlarımızın və etnik tərkibimizin inkişaf təkamülünü, onomastik sistemimizdə mərhələ-mərhələ, zaman-zaman baş vermiş dəyişiklikləri və s. bu səciyyəli prosesləri izləyə və müəyyənləşdirə bilərik. Mənbələrin digər xeyirli cəhəti ondadır ki, onlar ta qədim zamanlardan bəri Azərbaycanda işlənməkdə olan bir sıra toponimlərin müasir elmi səviyyədə, hərtərəfli izah edilməsinə kömək edən faktlar verir [1]. Nəticədə mənbələrin köməyi olmadan toponimlərimizi öyrənmək, onların tarixi və müasirlik cəhətdən təhlilini aparmaq, tarixi faktları üzə çıxarmaq mümkün olmazdı.

## ƏDƏBİYYAT

1. T. Əhmədov. Azərbaycan toponimikasının əsasları. Bakı, 1991, 312s.

2. Q.Qeybullayev. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı, 1994, 248 s.

3. К. Алиев. Античные источники по истории Азербайджана. Б.: Элм, 1986.

4. Геродот. История. В девяти книгах. Перевод и примечания. Г.А.Стратановского. Л.: Наука. 1972.

5. Страбон.География. В 17 т. книгах. Пер. (с греч), статья и коментарии. Г.А.Стратановского. Л:Наука, 1964.

6.История Армении Фавстоса Бузанда. Пер. с. Древнеарм. М.А.Геворкяна. Ереван. 1953.

7.Мамедов Т.М. Албания и Атропатена по древнеармяским источникам (IV-VII вв.). Б.: Элм, 1977.

8.Кляшторный С.Г.Древнетюркские рунические памятники как источник по истории Средней Азии.М.:Наука,1964.

9.Армянская география VII века по Р.Х.Пер. с древнеарм. К.П.Паткановым. СПб.: 1877.

10.История Агван Моисея Каганкатваци. Пер. с армянского К. Патканьяна. СПб. 1861.

11. M.H.Baharlı. Azərbaycan (Fiziki, - coğrafi, etnoqrafik və iqtisadi oçerk). Bakı, 1993,!92 s

12.Q.Qeybullayev. Qədim türklər və Ermənistan. Bakı, 1992, 140 s.

13.B. Budaqov, Q.Qeybullayev. Qarabağın etnik məskunlaşma tarixi və toponimləri. Bakı, 2022, 467 s.

14.İ.Cəfərsoy Hayların və Armenlərin mənşəyi. Bakı, 2020,s.3-64.

15. Bərsail Məhişoğlu. Doğma adım- Qarabağım. Bakı, 2002, 148 s

16.Y. Hüseynov. Qarabağ. Bakı, 2018, 336, səh.

17.N. Babayev. Şərqi Zəngəzur oykonimlərinin coğrafiya, tarix və dilçilik baxımdan tədqiqi. Bakı, 2022, 200 səh.

***Айнур Мирзаева***

***Этнотопонимы Карабаха в азербайджанских и армянских источниках***

***Резюме***

Топонимы имеют особое значение в жизни общества. Без топонимов невозможно представить развитый народ и нацию. Изучение этнотопонимов Карабаха является одной из главных задач, стоящих перед азербайджанскими лингвистами. История показала, что на протяжении более двух столетий наши учёные достойно показывали в своих трудах, что они боролись за захват наших земель, которые были глазами армян, и пытались присвоить наши топонимы. Этнонимы являются основным ведущим, важным, направляющим источником доказательства личности народа. Наша цель в статье «Этнотопонимы Карабаха в источниках» - рассмотреть исследовательские работы, показывающие этнотопонимы Карабаха от древних источников до наших дней, и показать в них реалии.

**Ключевые слова:** *Азербайджан, Карабах, этнотопонимы, азербайджанские и армянские источники.*

***Aynur Mirzayeva***

***Ethnotoponyms of Karabakh in Azerbaijani and Armenian sources***

***Summary***

Toponyms are of special importance in the life of society. It is impossible to imagine a developed people and nation without toponyms. The study of ethnotoponyms of Karabakh is one of the main issues facing Azerbaijani linguists. History has shown that for more than two centuries, our scholars have shown meritoriously in their works that they fought for the seizure of our lands, which were the eyes of Armenians, and attempted to privatize our toponyms. Ethnonyms are the main leading, important, guiding source to prove the identity of the people. Our goal in the article "Ethnotoponyms of Karabakh in the sources" is to look at the researched works showing the ethnotoponyms of Karabakh from ancient sources until today, and to show the realities in them.

**Key words:** *Azerbaijan, Karabakh, ethnotoponyms, Azerbaijani and Armenian sources*

***Çapa tövsiyə edən:*** ***AMEA, Nəsimi adına Dilçilik İnstitutu***

***Rəyçilər:*** ***professor İlhami Cəfərsoy***
***dosent Elşad Abışov***